# NAXÇIVANLI QADINLARIN SƏHNƏ FƏALİYYƏTİ

*40-cı illərin əvvəllərində Sofya Hüseynova, Pakizə Məmmədova və bir qədər sonra Roza Cəfərxanova (Roza xanım 1942-1948-ci illərdə M.S.Ordubadi adına Ordubad Dövlət Dram Teatrında ciddi fəaliyyət göstərmişdir. 1945-ci il aprel ayının 28-də Naxçıvan Muxtar Respublikasının əməkdar artisti fəxri adını almışdır), Sürəyya Qurbanova və başqaları Naxçıvan teatrında fəaliyyətə başladılar. Xədicə Qazıyeva, Firuzə Əlixanova, Zərəş Həmzəyeva kimi istedadlı sənətkarlarla birlikdə onlar da müxtəlif tamaşalarda uğurlu çıxışlar etdilər. İllər keçəndən sonra Sofya Hüseynova, Roza Cəfərxanova Azərbaycanın xalq artisti kimi fəxri adların sahibi oldular. Sofya Hüseynova xalqımızın ümummilli lideri Heydər Əliyevin sərəncamıyla "Şöhrət" ordeninə layiq görüldü. Zərəş Həmzəyeva, Sofya Hüseynova, Roza Cəfərxanova Prezident təqaüdçüləri oldular. Zərəş Həmzəyeva da "Şöhrət" ordenilə təltif olunmuşdur.*

60-cı ilin ortalarında tanınmış kino və dram aktyoru Zemfira Əliyeva Gəncə teatrından Naxçıvan teatrına gəldi. Onun gəlişi qədim sənət ocağının yaradıcılıq ab-havasında ciddi dönüş yaratdı. Onun qədəmləri Naxçıvan teatrına yeni səs, yeni nəfəs gətirdi. Baxşı Qələndərlinin, İbrahim Həmzəyevin, Nəsir Sadıqzadənin, Vəli Babayevin, Vaqif Əsədovun, Əliqismət Lalayevin quruluşlarında bir-birindən kəskin surətdə fərqlənən zəngin mənəviyyatlı qadın rolları yaratdı. "Vaqif"də Gülnar, "Solğun çiçəklər"də Sara, "Məhv olmuş gündəliklər"də Anşel, "Ana"da Ana, "Şeyda"da Roza,"Uçurum"da Anjel,"Eşq və intiqam"da Zöhrə, "Yaşar"da Yaqut, "Mənim nəğməkar bibim"də Mədinə, "Adamın adamı"nda Xədicə,"Elektra"da Elektra, "Yenə o bağ olaydı"da Dilbər... kimi dramatik, lirik və romantik obrazlar Zemfira xanımın məharətlə yaratdığı həqiqi səhnə surətləri idi. Zemfira xanım Əliyeva "Xalqlar Dostluğu" ordeni ilə təltif olunmuş, Naxçıvan MR Ali Sovetinin deputatı olmuş, 1976-cı ildə Azərbaycanın əməkdar artisti, 1982-ci ildə Azərbaycanın xalq artisti fəxri adlarını almışdır. 1986-cı ildən 1988-ci ilə qədər Zemfira xanım Əliyeva Azərbaycan Milli Akademik Dram Teatrında maraqlı rollar düzümü yaratmışdır. Min əfsuslar olsun ki, sənətinin kamil dövründə gözəl aktrisamız həyatının və sənətinin allı-güllü vaxtında dünyasını dəyişdi. Onun Naxçıvan teatrındakı tarixi xidmətləri heç bir zaman unudulmayacaqdır. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun.

70-ci illərin və 80-ci illərin əvvəllərində Naxçıvan teatrının əsl yaradıcılıq illəri idi. Teatra yeni aktrisalar cəlb olunmuş, repertuarda milli klassik və çağdaş dramaturqların əsərləriylə bərabər, qərb və rus yazarlarının dərin məzmunlu, romantik pafoslu, realist anımlı pyeslərinə geniş meydan verilirdi. Holdoninin, Lone De Veqanın, Viktor Huqonun, Çingiz Aytmatovun, Oralxan Bokayevin, Aleksey Dudarevin, Nodar Dumbadzenin, Hüseyn Muxtarovun, Aleksandr Ostrovskinin, Georgi Xuqayevin, Andrey Makayenokun, Georgi Mdivaninin, Anarın, Rüstəm İbrahimbəyovun, Əkrəm Əylislinin, Ramiz Rövşənin, Hidayət Orucovun, Loğman Rəşidzadənin, naxçıvanlı müəlliflərdən Hüseyn Razinin, Əliyar Yusiflinin, Kəmalə Ağayevanın, Məmmədəli Tarverdiyevin, Ramiq Muxtarın, Həsən Elsevərin, Həmid Arzulunun, Novruz Nehrəmlinin, Adil Qasımovun... pyesləri Baxşı Qələndərlinin,Vəli Babayevin, Nəsir Sadıqzadənin, Vaqif Əsədovun, Əliqismət Lalayevin məzmunlu quruluşlarında uğurla tamaşaya qoyulurdu. Bu tamaşalarda Naxçıvanın qadın sənətçiləri - Firuzə Əlixanova, Zərəş Həmzəyeva, Zemfira Əliyeva, Pakizə Məmmədova, Sofya Hüseynova, Roza Cəfərxanova, Sona Mirzəyeva, Yasəmən Ramazanova, Nəzakət Xudiyeva, Cəvahir Məmmədova və başqaları maraqlı ifalarıyla xüsusi diqqət çəkirdilər.

Sona xanım Mirzəyeva və Yasəmən xanım Ramazanova ali teatr təhsili görmüş aktrisa kimi teatra gəlmişdilər. Qeyd edim ki, Yasəmən xanım İncəsənət İnstitutuna getməmişdən öncə Naxçıvan teatrında bir sıra maraqlı rollar oynamışdı. "Ölülər"də Nazlı, "Haray səsində" Zərgül, "Adamın Adamı"nda Süsən Sünbül onun yatımlı ifasında maraqla qarşılanmışdır.

İstər Sona Mirzəyeva və istərsə də Yasəmən Ramazanova bu qədim sənət ocağında lirik, dramatik, romantik rolların mahir ifaçıları olmuşlar. Sona xanımın məharətlə yaratdığı "Şeyx Sənan"da Zəhra, "Əlincə Qalası"nda Gilan ana, "Quşu uçan budaqlar"da Səltənət, "Qaraçılar"da Zemfira, "Yad qızı"nda Nazan... özünün layiqli səhnə həlliylə fərqlənirdi. O, Azərbaycan Respublikasının əməkdar artisti fəxri adıyla təltif olunmuşdur. Ən ağrılı-acısı budur ki, Sona xanım 1985-ci il avqust ayının 27-də 36 yaşında bizlərdən ayrıldı. Çox böyük ümidverici sənətkar idi. Allah ona rəhmət eləsin, qəbri nurla dolsun.

Naxçıvanlı qadınlar arasında ilk ali təhsil alan Yasəmən xanım Ramazanovadır. O, Azərbaycan Dövlət İncəsənət İnstitutunun Kino və Dram fakültəsini bitirmişdir. Ünlü aktyorumuz, xalq artisti, professor, SSRİ Dövlət Mükafatı Laureatı Rza Təhmasibin tələbəsi olmuşdur. Tələbəlik illərində Yasəmən ustad sənətkardan çox şeylər öyrəndi. Hələ tələbəykən bir çox televiziya tamaşalarında maraqlı rollar oynadı. Və sonrakı illərdə Naxçıvan teatrında unudulmaz obrazlar silsiləsi yaratmağa müvəffəq oldu. C.Cabbarlının "Aydın" faciəsindəki Gültəkin obrazı aktrisanın sənət bioqrafiyasında xüsusi diqqət çəkdi. Və bu rol ədəbi tənqid tərəfindən layiqli qiymətini aldı. Orxan Kamalın "Yad qızı" faciəsindəki Nazan obrazı dolğun ifasıyla fərqləndi. Və təbii ki, Yasəmən xanımın Naxçıvan teatrında bu cür səpgili səhnə surətləri say etibarı ilə çoxluq təşkil edir. Son illər məhəbbətlə rəsm etdiyi şair-dramaturq Nəriman Həsənzadənin "Atabəylər" tamaşasındakı İnanc Xatın obrazı cəsarətlə demək olar ki, aktrisanın səhnə ömürlüyündə yanar bir səhifə oldu. Başdan-ayağa dramatik gərginliklə əhatə olunmuş bu obraz Yasəmən xanımın ifa təqdimində olduqca baxımlı və ifadəliydi.

Yasəmən xanım Ramazanova son illər başqa ampluada da çıxış edir. Artıq quruluşçu rejissor kimi də ilkin uğurlu addımlarını atır. Osetin dramaturqu Georgi Xuqayevin "Mənim qayınanam" komediyasını uğurla sənətsevərlərə təqdim etmişdir. Onun növbəti işi dahi Azərbaycan dramaturqu Hüseyn Cavidin "Afət" tamaşası olacaqdır.

Yasəmən xanım Ramazanova 1987-ci il iyun ayının 12-də Naxçıvan Muxtar Respublikasının və 1999-cu il oktyabr ayının 9-da Azərbaycan Respublikasının əməkdar artisti fəxri adlarına layiq görülmüşdür.

Ümumiyyətlə 70-ci ilin əvvəllərində və sonrakı illərdə Azərbaycan mədəniyyətində, o cümlədən teatr, musiqi, təsviri incəsənət, memarlıq aləmində intibah dövrü yarandı. Azərbaycan mədəniyyəti geniş şəkildə təbliğ və tərənnüm olundu. Dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə gəlişi Milli mədəniyyətimizi yeni üfüqlərə doğru apardı. Sənət və sənətkar layiqli qiymətlərini aldılar. İstər teatr və istərsə də başqa incəsənət növləri əsl tərəqqi yoluna çıxdı. Qadın sənətkarlarına xüsusi diqqətlə yanaşıldı.

70-80-ci illər Naxçıvan teatrının da çiçəklənmə dövrü oldu. Firuzə Əlixanova, Sofya Hüseynova, Zemfira Əliyeva, Sona Mirzəyeva və sonrakı illərdə Yasəmən Ramazanova, Nəzakət Xudiyeva Azərbaycanın xalq və əməkdar artisti fəxri adlarına layiq görüldülər. Elmira Kərimova isə Naxçıvan Muxtar Respublikasının əməkdar artisti fəxri adıyla təltif olundu. Həmin çiçəklənmə dövründə xalq artistləri Firuzə Əlixanovanın, Zərəş Həmzəyevanın, əməkdar artist Xədicə Qazıyevanın və 90-cı illərdə (müstəqillik illərində) Sofya Hüseynovanın, Roza Jəfərxanovanın təntənəli yubiley gecələri keçirildi. Üç sənətçimiz - Zərəş Həmzəyeva, Sofya Hüseynova (onlar həm də "Şöhrət" ordenilə təltif olundular) və Roza Cəfərxanova Prezident təqaüdçüsü oldular. Sənətə, sənətkara, milli dəyərlərə bu cür qiymət verilirdi.

Bunlar dünya şöhrətli siyasətçi Heydər Əliyevin ağıllı siyasətinin nəticəsində meydana gəlirdi. İstər 70-80-ci və istərsə də müstəqillik illərində Azərbaycan mədəniyyəti özünün cəsarətlə demək olar ki, intibah illərini, daha obrazlı desək baharlı məqamlarını yaşayırdı.

Təbii ki, bu baharlı və yaşamlı illərdə Azərbaycanın sənətçi qadınları durmadan inkişaf və tərəqqi edirdilər. Qadın sənətkarlarımız istər teatr, istər kino, istər musiqi, istərsə ədəbiyyat və memarlıq sahəsində misilsiz uğurlar qazanırdılar.Və o cümlədən də qədim Naxçıvan torpağının sənətkar qadınları.

Yeni-yeni musiqi məktəbləri, teatrlar, mədəni-maarif obyektləri xalqın ixtiyarına verilirdi. Vaxtı ilə Naxçıvan teatrında barmaqla sayılacaq qadın aktrisamız vardısa, xatırlatdığım illərdə onlarla qız və qadınlarımız səhnədə gözəl-gözəl sənət nümunələri yaradırdılar.Təkcə teatr aləmində yox, musiqi, təsviri incəsənətdə də böyük yüksəliş vardı. Bütün bu misilsiz sənət uğurları Heydər Əliyev fenomeninin dühası sayəsində yaranırdı.

Naxçıvan teatrının sənətkar qadınları. Bu geniş anlamda ciddi tədqiqat mövzusudur. 90 ilə yaxındır ki, qədim torpağın qadın aktrisaları sənət aləmində böyük nailiyyətlər əldə ediblər. Bütün bunlar heç də asanlıqla həyata keçməyib. Bu yol heç də hamar, işıqlı olmayıb. Ciddi təqiblərdən, amansız işgəncələrdən, hədə-qorxulardan gəlib keçib bu sənət yolu. Yerinə düşən ağrılı bir hadisəni yada salım. Vaxtı ilə (95-100 il bundan öncə) qüdrətli Azərbaycan aktyoru və rejissoru Hüseyn Ərəblinski Əbdürrəhim Bəy Haqverdiyevdən dönə-dönə xahiş edirdi ki, pyes yazanda elə yaz ki, orada qadın rolu olmasın. (Ə.B.Haqverdiyevin "Ağa Məhəmməd Şah Qacar" əsəri buna canlı misal ola bilər). Bax, Azərbaycan teatrının belə ağrılı-acılı illəri, vaxtları

çox olub. Ölməz Cəfər Cabbarlının "Oqtay Eloğlu" pyesində də bu yaralı yerlərə çox toxunuldu. Təbii ki, belə misallardan, həyati hadisələrdən çox danışmaq olar. Onlar hamısı tarixin arxivinə verildi. Və illər keçdi, Azərbaycan aktrisalarının işıqlı günləri başlandı. Bakıda Əzizə Məmmədova, onun qızı Sona Hacıyeva, Mərziyə Davudova, Fatma Qədri, Hökumə Qurbanova, Sofya Bəsirzadə, Leyla Bədirbəyli, Nəcibə Məlikova, sonrakı illərdə Şəfiqə Məmmədova, Amalya Pənahova, Səfurə İbrahimova, Gəncədə Rəmziyə Veysəlova, Firuzə Bədirbəyli, Sədayə Mustafayeva, Naxçıvanda Xədicə Qazıyeva, Firuzə Əlixanova, Zəroş Həmzəyeva, Pakizə Məmmədova, Sürəyya Qurbanova, Sofya Hüseynova, Roza Cəfərxanova, Zemfira Əliyeva, Sona Mirzəyeva, Yasəmən Ramazanova, Nəzakət Xudiyeva, Nübar Novruzova, Elmira Kərimova... kimi qiymətli qadın aktrisalarımız səhnəyə gəldilər və onların gəlişləri milli teatr incəsənətimizi daha da zənginləşdirdi. Təbii ki, bu proses Azərbaycanın müstəqillik illərində daha qlobal şəkildə şaxələndi və yeni tərəqqiyə yüksəldi.

Naxçıvanın zəngin və ibrətli teatr tarixinə diqqətlə nəzər salsaq baxıb görərik ki, qadınlarımız nə dərəcədə fəallıq göstərib bu yolda. Onlar bir amal, bir məqsəd, bir sağlam ideya yolunda hər təqib, hər təhqirə sinə gərib, mətanətli mübarizə yollarından keçib, gəlib bu cür işıqlı, baharlı yola çıxıblar. Bu yol əsl mənada sənət yolu olub, bu yol onları zindan məngənəsindən çıxarıb azadlığa, səadətə, firavan bir aləmə qovuşdurub. Və onların bu əzablı yolunu biz mübarizə yolu adlandırmışıq. Qədirbilən xalqımız onların bu mübariz və mərdanə hərəkətlərini, cəsurluğunu tarixi qələbə kimi alqışlayıb.

Əgər bu gün Naxçıvan teatrının könülaçan mənzərəsinə diqqət kəsilsək baxıb görərik ki, bu gözəl torpağın qadın sənətkarları necə də böyük sənət izləri qoyublar. Xədicə xanımın, Firuzə xanımın, Zəroş xanımın, Sofya xanımın, Roza xanımın, Zemfira xanımın, Sona xanımın hardasa qəlblərində qalan arzularını Yasəmən Ramazanova, Nəzakət Xudiyeva, Elmira Kərimova, Günah Qurbanova, Nazlı Hüseynquliyeva... kimi qadın aktrisalarımız ləyaqətlə həyata keçirirlər. Bu aktrisalar səhnədə məharətlə yaradılan surətlərlə öz xələflərinin ruhlarını ucaldırlar.Və sənətin geniş üfüqlərinə doğru irəliləyirlər.

30-cu illərdə şöhrətli aktrisamız Rüxsarə Ağayevanın, Nadirə Rzayevanın və sonrakı illərdə Naibə Allahverdiyevanın, Nübar Novruzovanın, Xuraman Hacıyevanın (Xuraman Hacıyeva Naxçıvan teatrında işlədiyi vaxt, 9 oktyabr 1999-cu ildə Azərbaycanın xalq artisti fəxri adına layiq görülmüşdür), Cavahir Məmmədovanın və başqalarının xidmətlərini biz heç vaxt unutmayacağıq.

Naxçıvan teatrının sənətkar qadınları böyük bir sənət yolu keçiblər və keçilən bu yol örnəkli, yaddaqalımlı, diqqət çəkən şərəfli, mətanətli bir işıqlı yola çevrilib. Kimlər gəlib, kimlər keçib bu səhnədən. Böyük ədibimiz Ə.B.Haqverdiyev həmişə deyərmiş ki, artistin yolu, həyatı nə qədər tikanlı, nə qədər məşəqqətli olsa da sonu işıqlıdır. Bu baxımdan yanaşsaq aydın görünər ki, Naxçıvanın qadın sənətkarlarının ilkin səhnə həyatı ciddi təqiblərə, təhqirlərə məruz qalsa da, sonu bir o qədər firavan və səadətli olub. Onlar böyük sənətin zirvələrinə məhz mətin mübarizələrdən keçib gəliblər. Həm sənəti yaşadıblar, həm də özləri yaşayıblar. Və bu gün Azərbaycan teatr tarixində Xədicə Qazıyevanın, Firuzə Əlixanovanın, Zəroş Həmzəyevanın, Zemfira Əliyevanın, Sona Mirzəyevanın, Sofya Hüseynovanın, Roza Cəfərxanovanın, Yasəmən Ramazanovanın və başqalarının adları, sənətkarlıqla yaradılan obrazları xüsusi məhəbbətlə, yüksək sevərliklə yad edilir. Və bu günkü gənc nəsil bu sənət ənənələrini ləyaqət və şərəflə inkişaf etdirir.

Bu gün Azərbaycanın sənətçi qadınları müstəqillik illərində ömrünün baharlı və çiçəkli məqamlarını, illərini yaşayırlar. Çünki sənətə, sənətkara bu gün daha çox diqqət yetirilir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin işıqlı ideyaları, məqsədyönlü fəaliyyət proqramı sayəsində sənətimiz, bir sözlə milli mənəviyyatımız sabahın geniş üfüqlərinə doğru inamla irəliləyir. Bu yol işıqlı, nurlu bir yoldur, sabahlı, baharlı və böyük ümidli bir sənət yoludur. Yolunuz həmişə belə toylu-büsatlı olsun. Naxçıvan teatrının sənətkar qadınları da müstəqillik illərində öz fədakar sənət uğurları ilə nəzərlərdə diqqətlənirlər.

Böyük türk yazarı Tofiq Fikrətin aşağıdakı deyimləriylə məqaləmi tamamlayıram:

***Millət yoludur, haqq yoludur, tutduğumuz yol,***
***Ey həq yaşa, ey sevgili millət, yaşa, var ol!***

**CƏLİL VƏZİROV,**
**"Qızıl Dərviş" mükafatı laureatı,**
**teatrşünas**

*<u>Redaksiyadan:</u> məqalənin əvvəli jurnalımızın üçüncü sayında dərc edilmişdir.*